

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 sentyabr 2021-ci il №74 (2582) https://mod.gov.az Qiymәti 30 qəpik

## Şəhid qanıyla vətənləşən torpaqlar



Sübh tezdəndir. Dan yeri zülmətin pəncəsindən çətinliklə qopur. Yaxınlıqda yerləşən məscidin minarəsindən ucalan azan səsi, nəinki evin içinə, hətta bütün ruhuma, varlığıma daxil olur və yuxudan oyanıram... Bu nə möcüzədir, bu nə ilahi səsdir belə. Bu müqəddəs səsi hər gün eşidirsən, lakin ilk dəfəymiş kimi təsirlənirsən. Məncə insan ruhuna bu qədər hökm edən, bəsləyən, müsbət-əxlaqi duyğulara qərq edən ikinci bir səs ola bilməz...

Səhər yeməyini yeyib, hərbi mundirimi geyinib, günəşin doğuşu ilə yola düşürəm. Redaksiyamızın foto müxbiri ilə əsgərlərimizin görüşünə tələsirik. İstiqamət ötən il rəşadətli ordumuzun azad etdiyi ərazilərimizdədir. Günəş başımızın üstünü kəssə də, qızmarlığı o qədər də təsiredici deyil. Çünki gah isti yayı xatırladan, hərdən də soyuqluğu ilə şaxtalı qışa muştuluq olduğunu söyləyən payız fəsli gəlir. Ağacları əlvan rəngə boyayan rəssamdır sanki payız. "Qızıl payız" bizə bağların bəhrəsini, buz bulaqların sərinliyini, dağların əzəmət və vüqarını, ana təbiətin gözəlliyini gətirir. Son bahar olan payız fəslinə "güz" də deyirlər. Dədə Qorqud dastanında da deyildiyi kimi "Güz almasına bənzər al yanaqlım", yəni payız almasına bənzər al yanaqlım. Hətta payızda otlaqlarda cücərən otlara "güzdək" deyirlər.

...Bu il isə payız fəsli bir başqa ab-hava ilə gəlir. Çünki ötən ilin payızı hər ildəkindən fərqli keçdi, yaddaşlara bir başqa həkk olundu. 2020-ci ilin son baharı bəhrəsi, bolluğu ilə yanaşı ayrılıq, həzin duyğular fəsli oldu. Eyni zamanda torpaq həsrətinə son qoydu keçənilki payız. O son bahar, minlərlə oğullarımızın, ürəklərdə çiçəkləyən arzularının, diləklərinin, sevgilərinin son baharı, güzü oldu. Adaxlısının yolunu gözləyən neçə-neçə güz almasına bənzər al yanaqlının, övlad yolu gözləyən anaların, ata yolu gözləyən uşaqların həyatında kədərli iz, silinməz yara qoydu o payız. Yolu gözlənənlər Vətən uğrunda döyüşlərə atılmışdı. Şəhid olmuşdu, qazi olmuşdu. Onların ailələri üçün artıq çayların da, bulaqların da axarında bir kədər, qüssə, qəm, tənhalıq var. Saralıb ağaclardan ələnən yarpaqlar kimi onların da gözlərindən yaşlar süzülür, axan bulaqlar vida nəğməsi olur. Kədərli notları ilə yanaşı, qürurla, fəxrlə xatırlanır yaşanan o günlər, xoş xatirələr. Həmin qəhrəmanların valideynləri, doğmaları onların şəhidliyindən "Vətən sağ olsun!", deyərək qürurlanırlar. Onlar yarpaqlarını tökməsinə baxmayaraq torpağın üstündə dim-dik dayanan ağaclar kimi məğrur dayanırlar...

Ötən payız həm də otuz ilə yaxındır işğalda olan torpaqlarımızdan ayrı keçirdiyimiz son bahar oldu. Öz kədəri, qəm-qüssəsi ilə yanaşı yeni qəhrəmanlıq, qələbə dastanının ilk sətirlərinin yazıldığı günlər oldu qızıl payız. Qızıl payızda düşmən üzərinə əks-hücuma keçən Azərbaycan oğulları tarixə qızıl hərflərlə həkk olunan şanlı zəfər qazandılar. Sentyabrın 27-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun başladığı əks-hücum əməliyyatları 44 günün sonunda Böyük Qələbə ilə başa çatdı. Artıq payıza digər bənzətmələrdən daha gözəl yaraşan bir ad vermək olar - qələbə fəsli... bundan sonrakı qələbə fəsillərində otlaqlardakı güzdəklər öz həqiqi sahibləri üçün boy atacaq.

**(Ardı 4-cü səhifədə)**



Bakıda keçirilən Azərbaycan və Rusiya hərbi dənizçilərinin görüşü başa çatdı

**3-cü səhifədə**



Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları ilə tədbir keçirildi

**5-ci səhifədə**



Müdafiə Nazirliyinin təşkilatçılığı ilə şəhid zabitin xatirəsinə tikilən bulağın açılışı olub

**7-ci səhifədə**



“Vətən, sənin əsgərinəm!”

**8-ci səhifədə**

# “Üç qardaş-2021” beynəlxalq təlimində “Yüksək səviyyəli müşahidəçi günü” keçirilib

*Sentyabrın 20-də "Üç qardaş-2021" beynəlxalq təlimi çərçivəsində "Yüksək səviyyəli müşahidəçi günü" keçirilib.*




Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələr Komandanı general-leytenant Ömer Ertuğrul Erbakan, Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Təhlükəsizlik və Antiterror İdarəsinin rəisi general-mayor Mümtaz Hüseyn, Qazaxıstandan olan yüksək səviyyəli qonaqlar və bu dövlətlərin ölkəmizdəki hərbi attaşeləri iştirak ediblər.





Təlimdə planlaşdırılan fəaliyyətlər barədə qonaqlara məlumat verilib və onun gedişi barədə məruzə olunub.

Sonra xüsusi təyinatlı bölmələr müxtəlif təlim nöqtələrində plana uyğun verilən tapşırıqları icra ediblər. Bölmələr cavabdehlik sahəsində axtarış tədbirləri, aşkarlanan obyektlərin nəzarətə götürülməsi, şərti düşmənin idarəetmə məntəqələrinin məhv edilməsini yüksək peşəkarlıqla yerinə yetiriblər. Artilleriya və aviasiya atəşlərinin idarə olunması məqsədilə koordinatların verilməsi, həmçinin aviasiya vasitələrinin dəstəyi ilə digər tapşırıqlar da icra olunub.



Yekunda general-polkovnik Zakir Həsənov çıxış edərək təlimin uğurla başa çatması münasibətilə tədbir iştirakçılarını təbrik edib, üç qardaş ölkənin hərbi qulluqçularının yüksək peşəkarlıq və bacarıq nümayiş etdirdiyini vurğulayıb.

Müdafiə naziri bildirib: "Təlim göstərdi ki, müasir texnologiyalardan, yeni döyüş taktikasından istifadə edən xüsusi təyinatlılarımızın bacarığı daha da artıb və peşəkarlıq səviyyəsi xeyli yüksəlib. Təlimlər qoşunlarımızın imkan və qabiliyyətlərinin inkişaf etdirilməsinə böyük töhfə verdi. Bu təlim Silahlı Qüvvələrimizin qarşısında duran istənilən vəzifəni birgə icra etməyə hazır və qadir olduğunu bir daha nümayiş etdirdi".

Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında xalqımızın qələbəsi ilə başa çatan Vətən müharibəsi zamanı göstərilən mənəvi dəstəyə görə Türkiyə Respublikasına və Pakistan İslam Respublikasına minnətdarlığını bildirən Müdafiə naziri gələcəkdə də bu cür təlimlərin keçiriləcəyini qeyd edib.

Təlimin şüarının "Yaşasın, Azərbaycan-Pakistan-Türkiyə qardaşlığı!" olduğu diqqətə çatdırılıb.

Sonda təlim iştirakçılarına hədiyyələr təqdim olunub.

# Naxçıvanda “Sarsılmaz qardaşlıq-2021” birgə döyüş atışlı taktiki təliminə start verilib





Azərbaycan və Türkiyə Respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, Naxçıvanda hər iki ölkənin motoatıcı, xüsusi təyinatlı, komando və müxtəlif qoşun növlərinin iştirakı ilə "Sarsılmaz qardaşlıq-2021" birgə döyüş atışlı taktiki təliminə start verilib. Naxçıvan Qarnizonu Qoşunlarının birləşmə və hissələrinin, Türkiyə Silahlı Qüvvələrinin bölmələrinin cəlb edildiyi təlimdə ənənəyə uyğun olaraq iki qardaş ölkənin Dövlət Bayraqlarının dəyişmə mərasimi keçirilib.

Bayraqdəyişmə mərasimində iştirak etmək üçün Əlahiddə Ümumqoşun Ordunun bayraq taqımı Naxçıvan şəhərindən və eyni zamanda Türkiyə Respublikasının bayraq taqımı da Doğu Bəyazid şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru hərəkətə başlayıb.

Bayraq taqımları "Ümid" körpüsü üzərinə çatdıqdan sonra Türkiyə və Azərbaycan Respublikalarının Dövlət Himnləri səsləndirilib və bayraqdəyişmə mərasimi keçirilib.

Mərasimin davamı olaraq "Ümid" körpüsündən keçən Türkiyə Silahlı Qüvvələrinin hərbi kolonu təlim rayonu istiqamətində hərəkət edib və qardaş ölkənin hərbi qulluqçuları Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində təntənəli şəkildə qarşılanıb.

# “Üç qardaş-2021” beynəlxalq təliminin təntənəli bağlanış mərasimi keçirilib





Sentyabrın 20-də Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə "Üç qardaş-2021" beynəlxalq təliminin bağlanışına həsr olunan təntənəli mərasim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, birgə təlimlərin başa çatması münasibətilə Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant Hikmət Mirzəyev hərbi qulluqçuları təbrik edib.

İştirakçı ölkələrin Dövlət Himnləri ifa olunduqdan sonra general-leytenant Hikmət Mirzəyev qonaqlara və şəxsi heyətə müraciət edərək bildirib: "Təlimdə iştirakçılar yüksək bacarıq nümayiş etdirərək tapşırıqları uğurla yerinə yetirdilər. Əminəm ki, təlimlər zamanı bacarıqlarınızın artırılması ilə yanaşı, peşəkar həyatınız üçün çox faydalı olan fikir və təcrübə mübadiləsi imkanı əldə etdiniz. Birgə təlimlər xalqlarımız arasındakı dostluğun, ölkələrimiz arasında sıx əməkdaşlığın bir nümunəsidir. Təlim döyüş sahəsində üç qardaş ölkənin hərbçilərinin bir yerdə olması, çiyin-çiyinə tapşırıq yerinə yetirməsi hər birimizi qürurlandırdı".

Təlim iştirakçılarını salamlayan Türkiyə Silahlı Qüvvələrinin XTQ komandanı general-leytenant Ömer Ertuğrul Erbakan böyük qürur hissi ilə vurğulayıb ki, "Üç qardaş-2021" təlimi uğurla tamamlanmışdır. O, bildirib: "Aramızda var olan qardaşlıq bağları çox güclü olub və bundan sonra daha da güclənəcəkdir. Üç ölkənin xüsusi təyinatlıları arasındakı qarşılıqlı işbirliyi, təhsil və təlim fəaliyyətləri bundan sonra da davam edəcəkdir".

Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Təhlükəsizlik və Antiterror İdarəsinin rəisi general-mayor Mümtaz Hüseyn isə qeyd edib: "Çiyin-çiyinə dayanan Azərbaycan, Türkiyə və Pakistandan olan xüsusi təyinatlı qardaşlar arasında icra edilən birgə təlimin şahidi olmaq mənim üçün həqiqətən böyük şərəf və qürurdur. Təlim zamanı xüsusi təyinatlılar tərəfindən nümayiş olunan peşəkarlıq təqdirəlayiqdir. "Üç qardaş-2021" təliminin həyata keçirilməsi üçün qarşıya qoyulan məqsədlərə nail olunmuşdur. Bu da bütün iştirakçıların peşəkarlıq səviyyəsinin artırılmasına öz töhfəsini verəcəkdir".

Çıxışlardan sonra təlim iştirakçılarına xatirə hədiyyələri təqdim edilib və onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

"Üç qardaş-2021" beynəlxalq təliminin bağlanışına həsr olunan təntənəli mərasimin rəsmi hissəsi başa çatdıqdan sonra Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbaninin senarisi və rejissorluğu ilə hazırlanan "Bu gün bir yerdəyik, sabah da bir yerdə olacağıq!" adlı teatrlaşdırılmış mədəni proqram təqdim edilib.





# Bakıda keçirilən Azərbaycan və Rusiya hərbi dənizçilərinin görüşü başa çatdı



Sentyabrın 18-də Bakıya qeyri-rəsmi dostluq səfərinə gələn Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər Flotiliyasının "Astraxan" kiçik artilleriya və "Anatoliy Qujvin" hidroqrafiya hərbi gəmilərinin Bakı Dəniz Vağzalında qarşılanma mərasimi keçirildi. Mərasimdə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndələri, Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov, hərbi attaşesi polkovnik Andrey Aleksensev, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdilər. Hər iki ölkənin Dövlət Himnləri səsləndirildi.

Sonra dostluq səfəri ilə ölkəmizdə olan Rusiya Federasiyası Hərbi Dəniz Donanmasının Xəzər Flotiliyasının hərbi nümayəndə heyətinin rəhbəri ilə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin qərargahında baş tutan görüşdə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov, Rusiya Federasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov, hərbi attaşesi polkovnik Andrey Aleksensev və Rusiya Hərbi Dəniz Donanması Xəzər Flotiliyası gəmilərin dəstə komandiri 2-ci dərəcəli kapitan Vladimir Zaytsevin rəhbərlik etdiyi nümayəndə iştirak etdi. Görüşdə Azərbaycan Hərbi Dəniz Qüvvələri ilə Rusiya Federasiyası Xəzər Flotiliyası arasında dostluq münasibətləri və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olundu.

Qeyri-rəsmi dostluq səfəri çərçivəsində rusiyalı hərbi dənizçilərə Bakı şəhərində gəzinti təşkil olundu. Rusiyalı nümayəndə heyəti Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın məzarlarını ziyarət etdilər, abidə önünə əklil qoydular.

Səfər çərçivəsində nümayəndə heyəti, həmçinin Azərbaycan Hərb Tarixi Muzeyini və Bakının Şüvəlan qəsəbəsində batmış "Kuba" gəmisində həlak olan dənizçilərinin xatirəsinə ucaldılan abidəni də ziyarət etdilər.



Səfər proqramına əsasən, azərbaycanlı və rusiyalı hərbi dənizçilər arasında voleybol üzrə yoldaşlıq oyunu da baş tutdu. Yoldaşlıq oyununda Azərbaycan tərəfi 3-0 hesabı ilə qalib gəldi.

Sentyabrın 20-i qeyri-rəsmi dostluq səfəri başa çatdı. Rusiya Hərbi Dəniz Donanması Xəzər Flotiliyası gəmilərin dəstə komandiri 2-ci dərəcəli kapitan Vladimir Zaytsev dostluq səfəri çərçivəsində onlara göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Azərbaycan tərəfinə dərin minnətdarlığını bildirdi. Sonra "Astraxan" kiçik artilleriya və "Anatoliy Qujvin" hidroqrafiya hərbi gəmiləri hərbi orkestrin müşayiəti ilə Bakı limanını tərk etdilər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Şəhid qanıyla vətənləşən torpaqlar

(Əvvəli 1-ci səhifədə)



Uzun yolun sonunda mənzil başına çatırıq. Zabit Səbuhi Qasımovla görüşürük. Səbuhi də qələbə fəslini sevinc və nikbin hisslərlə qarşılayanlardandır. Söhbətimizin əsas mövzusu "Dəmir yumruq" əks-hücum əməliyyatlarının başlamasından bir il ötməsi olur. Zabit həmin günlərdən danışır, danışdıqca qürurdan sinəsi qabarır, kədərdən gözləri dolur. Bu müqəddəs yolda silahdaşlarını, yaxın dostlarını itirdiyini bildirir. İkinci Qarabağ müharibəsinin iştirakçısı olan zabit qarışıq hisslərini sözlərlə ifadə edir. "Bu qələbənin 30 ilə yaxındır arzusunda olmuşuq. Torpaq həsrəti, erməni işğalının və təcavüzünün qurbanı olan soydaşlarımızın qisas hissi ilə alışıb yanmışıq. Düşmən təxribatının qarşısını almaq üçün əks-hücum əmri gələndə, üzlərdəki o sevinci, qüruru, qətiyyəti sözlə ifadə etmək çətindi. Hamı silahına sarılıb mətinliklə döyüşə atıldı. Prezidentimizin siyasi gücü, xalqımızın mənəvi dəstəyi ilə bütünləşdik. Düşməni əzəli torpaqlarımızdan qovmağa başladıq. Kəndlərimizin azad olunduğu xəbərini aldıqca daha da ruhlandıq. Ruhlandıqca döyüşə-döyüşə irəli atılır, qələbə gününə tələsirdik. Şükürlər olsun ki, döyüşləri zəfərlə başa vurduq və illərdir həsrətlə baxdığımız ərazilərdə bizim əsgərlərimiz xidmət aparır. Azərbaycan gənci və zabiti kimi çox qürurlanıram ki, Vətən müharibəsinin iştirakçısı oldum. Bu tarixi zəfərin qürurunu yaşayanlardan biri kimi dövlətimizlə və ordumuzla fəxr edirəm. Lakin



qələbə sevinci ilə yanaşı müharibənin kədərli, ağrılı-acılı günlərini də unutmuram. Bu müqəddəs yolda şəhid olan bütün silahdaşlarımızın əziz xatirəsini daim yad edir, Allahdan onlara rəhmət, yaxınlarına səbir diləyirəm".

...Allah rəhmət eləsin igidlərimizə. Onlar öz qanlarıyla, canlarıyla zəfər tarixi yazdılar, tarixə yazıldılar. Necə deyirlər "torpaq uğrunda ölən varsa, Vətəndir". Hal-hazırda üzərində gəzdiyimiz bu torpaqlar da şəhidlərimizin qanları ilə vətənləşib.

Artıq işğaldan azad olunan ərazilərdəyik. Zabitin xatirələri hər ikimizi elə ağuşuna aldı ki, yolun necə keçdiyinin fərqinə varmadıq. Buranın gözoxşayan təbiəti insanı valeh edir. Kənd uca dağların əhatəsindədir. Hər yer yaşıllıqdır, gur axan suyun səsi kəndin girişindən eşidilir. Kanalın mənbəyi kəndə füsunkar gözəllik verən dağların arasındakı su anbarıdır.

Bu yerlərdə ötən il döyüşlər gedən zaman da tez-tələsik addımlamışdıq. Xeyli dəyişilib. Qısa müddətdə sürətli abadlıq və quruculuq işləri görülüb. Şəxsi heyətin xidmətini uğurla davam etdirməsi üçün yüksək şərait yaradılıb.

Bu ərazilərdə xidmət aparan bölmələrdən birinə gəlirik. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yusif Xanlarlı bizi qarşılayır. Yusif Tərtər rayonunda anadan olub. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra könüllü olaraq hərbi xidmətini davam etdirib. "Ordu sıralarına öz arzumla və istəyimlə qatıldım. Döyüşlər zamanı seçimimlə bir daha qürur duydum. Yaxşı ki, bu şərəfli peşənin mənsubu olaraq Vətən mübaribəsinin iştirakçısı oldum. Talış kəndinin və Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etdim. Bu yerlərdə xidmət aparmağın məna yükü mənim üçün bir başqadır. Ötən il bu ərazilərin azad olunması üçün mərdliklə döyüşürdük. Neçə-neçə igid silahdaşım şəhid oldu. Onların qanı ilə sulanan torpaqlarımızda xidmət aparmaq mənim üçün müqəddəsdir. Əlbəttə, onlar bizim aramızdadır, qəlbimizdədir və xatirələri daim bizimlə yaşayır. Otuz ildən sonra buranın ilk sakinləri olmağın sevincini qürurla yaşayırıq. Bu hiss bizi hərbi xidmətə daha da ruhlandırır, qürurlandırır. Düzdür, itkilərimizə görə üzülürük, lakin qələbə qazanmağımıza sevinirik ki, şəhid qardaşlarımızın qanı yerdə qalmadı. Qisaslarını alaraq Böyük Qələbə qazandıq, torpaqlarımızı azad etdik."

Ali Baş Komandanın müvafiq Sərəncamı ilə "Suqovşanın azad olunmasına görə" medalı ilə təltif olunan Yusiflə söhbətimizi başa vurub bölmənin digər heyəti ilə tanış oluruq. Müşahidə postunda növbədən qayıdan əsgər Həsənağa Hüseynov əslən Salyan rayonundandır. Vətən müharibəsinin iştirakçısı olub. Talış kəndi və Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. "Şanslı gənclərdənəm ki, əsgəri xidmətim Vətən müharibəsinə təsadüf etdi. Məncə bu hər bir gəncin arzusu idi. Hərbi xidmətə gələn gündən bir amalla xidmət edirdik, döyüş əmri olsun torpaqlarımızı işğaldan azad edək. Xalqımızın da dəstəyi ilə buna nail olduq. İnamlı qələbə qazandıq. Əzəli torpaqlarımızdan düşməni qovduq. Ötən il həsrətlə baxdığımız işğalda olan bu gözəl yerlər azaddır və artıq biz burada xidmət edirik. Bu bir başqa xoşbəxtlikdir, sevincdir. Qalib ordunun, qalib əsgəri kimi xidmətimi uğurla və layiqincə davam etdirirəm. Verilən tapşırıqların öhdəsindən məsuliyyətlə gələrək nümunəvi əsgər olmağa səy göstərirəm".

Əsgər Etibar Əmrahov da Həsənağa ilə eyni hissləri bölüşür. Bu ərazilərin işğaldan azad olunması üçün o da mərdliklə döyüşüb. Xidmətinin son günlərini yaşayır. Tərxis olunmağına sayılı günlər qalan Etibar duyğularını belə ifadə edir. "Hərbi xidmətə gələndə heç düşünməzdim ki, xidmətimi bu hisslərlə başa vuracam. Düzdür, düşməndən qisas almaq, torpaqlarımızı azad etmək hər zaman arzumuz olub. Lakin bu şərəfli işin kimə qismət olacağını heç kim bilmirdi. Xoşbəxtəm ki, Vətən müharibəsi mənim də xidmət vaxtıma təsadüf etdi və tarixi zəfərimizə minlərlə qəhrəman silahdaşımla çiyin-çiyinə döyüşdüm. Həmin günlər bir ömür boyu xatırlanacaq və gələcək nəsillərə qürurla danışılacaq xatirələrlə yaddaşımıza həkk olundu".

Bəli, Azərbaycan Ordusu elə bir qəhrəmanlıq dastanı yazdı ki, bütün dünya əsrlər



boyu bundan danışacaq. İkinci Qarabağ müharibəsi qəhrəman xalq olduğumuzun bir daha sübutu oldu. Azərbaycanın mərd oğulları döyüş meydanında vətənpərvərlik, şücaət, mübarizlik, əzmkarlıq, dözümlülük... saymaqla bitməyən əsl qəhrəmanlara xas xüsusiyyətlər nümayiş etdirdilər. Bu qəhrəmanlıq müasir silahlarla, güclü maddi-texniki bazayla, yüksək döyüş hazırlığı ilə bütünləşərək ordumuzun yenilməzliyini təmin etdi. Yeni zəfər tarixi yazıldı...

Bölmənin digər əsgərləri Orxan Məmmədov və Elməddin Babayev də bu zəfərin qazanılmasında iştirakçı olub. Döyüşlərdən söhbət açanda digər əsgərlər kimi onların da simasından fərqli duyğular oxunur. Qürur, həyəcan, kədər... qarışıq hisslər. "Hər əsgər kimi biz də xalqımıza zəfər sevinci yaşatmağın qürurunu yaşayırıq", - deyərək hisslərini ifadə edirlər. "Döyüşlərin bir ilinə az qalır. Lakin dünən kimi yaddaşımızdadır. Hal-hazırda xidmət etdiyimiz yerlərin hər qarışı uğrunda qızğın döyüşlər gedib. Ərazilərimizi azad etdikcə yaşadığımız sevinci, silahdaşlarımız şəhid olanda keçirtdiyimiz kədəri heç vaxt unutmuruq. Burada xidmət aparmaq artıq ikiqat əhəmiyyətli və məsuliyyətlidir. Xidmətimizi düzgün təşkil edib, torpaqlarımızı göz bəbəyi kimi qorumaq bizim mənəvi borcumuzdur".

Bölmənin əsgərləri Sənan Xudiyev və Tural Mustafayev bir il bundan öncə hələ hərbi xidmətə yeni çağırılmışdılar. Döyüşlərdə iştirak etmək onlara qismət olmasa da azad olunan ərazilərimizdə ilk xidmət edən əsgərlər olmağın sevincini yaşayırlar. Yüksək əhval-ruhiyyə ilə xidmət edir, torpaqlarımızın keşiyində layiqincə dayanırlar. "Vətən müharibəsində iştirak edə bilmədiyimiz üçün çox üzülmüşdük. Hər gün komandirlərin əmrini gözləyirdik ki, biz də döyüşlərə qatılaq. Hərbi hissədə özümüzə yer tapa bilmir, gecələri belə yuxusuz qalırdıq. Hər an cəbhədən gələcək şad xəbərləri gözləyirdik. Təəssüf ki, həmin günlərin qürurunu, sevincini döyüş meydanında yaşamaq bizə nəsib olmadı. Bu gün isə otuz ildən sonra azad olunan ərazilərin ilk sakini olmağın sevincini yaşayırıq. Hər gün əsgər yoldaşlarımızın döyüş xatirələrinə qulaq asır, onlarla bir daha fərəhlənirik. Xoşbəxt gənclərik ki, qalib ordunun əsgəri, qalib dövlətin vətəndaşlarıyıq", - deyir Sənan və Tural.

Xalqımız da sizin kimi əsgərləri, rəşadətli ordusu ilə qürurlanır. Bölmədə müşahidə etdiyim sağlam mühit, səmimi münasibətlər, yüksək mənəvi-psixoloji vəziyyət və təminatın qaydasında olması xoş təəssürat yaradır. İşğaldan azad olunan ərazilərimizdə əsgərlərlə görüşə gəlmək, söhbətləşmək, məqalələr hazırlamaq bizi də qürurlandırır. Bir vaxtlar bu günlərin arzusunda, xəyalında idik. Müzəffər Ali Baş Komandan və rəşadətli Azərbaycan Ordusu arzularımızı çin etdi. "Belə reportajları Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda... hazırlayaq" arzuları keçən ilin son baharında kamına çatdı. Zəfərimizlə arzularımıza, xəyallarımıza, tariximizə və misralarımıza yeni baharlar gəldi.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları ilə tədbir keçirildi



Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə təməli qoyulan Xüsusi Orta internat-məktəbi artıq uzun illərdir ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlanır. Bu ibtidai hərbi təhsil ocağının ordu quruculuğunda mühüm rolu var. 2021-ci ildə 50 illik yubileyini qeyd edən tədris müəssisəsinin məzunlarından da "Dəmir yumruq" əks-hücum əməliyyatında iştirak edənlər çox oldu. Onlardan 11 nəfəri Vətən Müharibəsi Qəhrəmanı adına, yüzlərlə zabiti müxtəlif dərəcəli orden və medallara layiq görüldülər. Hər zaman olduğu kimi bu gün də hərbi lisey ümummilli lider Heydər Əliyevin ideyalarına sadiqliyini qoruyub saxlayır.

Təlim, tədris və fiziki hazırlıqla bərabər Cəmşid Naxçıvanski adına Hərbi Lisey kursantlarının mənəvi-psixoloji hazırlığına da yüksək diqqət göstərilir. Gələcəyin zabitləri inkişaf etmiş və zəngin dünya görüşünə malik gənclər kimi məzun olurlar.

Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, onların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunması məqsədilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarının iştirakı ilə tədbir keçirildi.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, suverenliyi uğrunda şəhidlik zirvəsinə yüksələn soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Çıxış edənlər yeniyetmələrin sıx-sıx qarşılaşdığı psixoloji problemlərdən, xüsusən sağlamlığa ziyan vuran pis vərdişlərdən söz açdılar. Tədbirdə, həmçinin vurğulandı ki, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı yüksək səviyyədə saxlanılmalıdır.



Sonda dinləyiciləri maraqlandıran suallar cavablandırıldı.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan "Teknofest-2021" festivalında təmsil olunur

Sentyabrın 21-dən etibarən İstanbulda "Teknofest-2021" Aviasiya, Kosmos və Texnologiya Festivalı başlayıb.

AZƏRTAC xəbər verir ki, festivalda Azərbaycan 200 kvadratmetrlik ərazidə öz texnoloji avadanlıqlarını və hərbi texnikasını nümayiş etdirir. Ölkəmiz Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi və Müdafiə Nazirliyi tərəfindən təmsil olunur. Tədbirdə Azərbaycanın Müdafiə Nazirliyi tərəfindən iki "MiQ-29" təyyarəsi, eləcə də Müdafiə Sənayesi Nazirliyi tərəfindən "İti qovan", "Orbiter 2", "Orbiter 3", "Orbiter 4" kimi pilotsuz hava vasitələri də sərgilənir. "MiQ-29" təyyarələri beş gün ərzində İstanbulda təşkil olunacaq hava şoularında da iştirak edəcək.

Ölkəmiz üçün ayrılmış ərazidə quraşdırılan monitorda 44 günlük Vətən müharibəsi zamanı "Bayraktar TB2" silahlı pilotsuz uçuş aparatı ilə məhv edilən düşmən texnikaları və hərbi obyektlərinin görüntülərindən ibarət videoçarx nümayiş etdirilir.




Festivalda Türkiyə tərəfindən bir çox yeniliklərlə yanaşı ilk dəfə olaraq qardaş ölkənin Müdafiə Sənayesi Nazirliyi tərəfindən hazırlanan "Türk Müdafiə Sənayesi Keçmişdən Gələcəyə" başlıqlı zaman tuneli ziyarətçilərə təqdim olunur. Tuneldə Mete xandan başlayaraq "Akıncı" TİHA-ya qədər, eramızdan əvvəl III əsrdən bu günə kimi Türk Müdafiə Sənayesində baş verən dəyişikliklər fotoşəkillərlə sərgilənir.

Qeyd edək ki, festival sentyabrın 26-dək davam edəcək.

# Azərbaycan HHQ-nin nümayəndələri "Texnofest-2021" festivalında iştirak edir

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) bir qrup heyəti və aviasiya vasitələri "Texnofest-2021" festivalında iştirak edir.

Sentyabrın 21-də Türkiyə Respublikasının İstanbul şəhərində başlayan festivalda Azərbaycan tərəfindən HHQ-nin 2 ədəd MiQ-29 qırıcı təyyarəsinin nümunəvi uçuşları planlaşdırılıb.

Qeyd edək ki, festival sentyabrın 26-dək davam edəcək.

# Moldovanın xəbər portalları Azərbaycan Ordusunun gücündən yazır

Moldovanın xəbər portalları Qərb KİV-nə istinadla Azərbaycan Ordusunun qüdrətindən yazıblar. AZƏRTAC xəbər verir ki, materiallarda Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyəti, Vətən müharibəsində Azərbaycanın Qələbəsi nəticəsində yaranan yeni geosiyasi reallıqlar və Azərbaycan Ordusunun güclü tərəfləri barədə oxuculara ətraflı söhbət açılır.

Bundan başqa, materiallarda vurğulanır ki, Azərbaycan nailiyyətləri əsasən hava hücumuna qarşı, raket hücumundan müdafiə, həmçinin hava-kosmik bazasında kəşfiyyat və müşahidə sistemlərini özündə birləşdirən müasir komandanlıq və idarəetmə şəbəkə strukturu sayəsində əldə edilib.

Müəlliflər, həmçinin ona diqqət yetirirlər ki, Qərb dövlətləri artıq yüksək texnoloji silahların yeganə istifadəçisi deyil və Azərbaycan Avropa İttifaqının əksər ölkələri ilə müqayisədə daha genişspektrli əməliyyatlara reaksiya verə biləcək qabiliyyətə malik hərbi vasitələrə sahibdir.

# Minaatan bölmələrinin intensiv döyüş hazırlığı məşğələləri davam edir



2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun minaatan bölmələri ilə keçirilən intensiv döyüş hazırlığı məşğələləri davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, məşğələlərdə batareyanın atəş mövqeyini tutması və komanda müşahidə məntəqəsinin açılması tapşırıqları icra olunur.

Minaatan qurğuları tələb olunan vaxt çərçivəsində atəş vəziyyətinə gətirilir, planlı və plandankənar hədəflərə döyüş atışları yerinə yetirilir.

Təlimə cəlb olunan şəxsi heyət hədəfləri sərrast atəşlə məhv edir.

# "Rusiya Müdafiə Nazirliyinin yaydığı məlumat təəccüb və təəssüf doğurur"

Rusiya Müdafiə Nazirliyinin erməni tərəfinə istinadən Azərbaycan Ordusunun bölmələri tərəfindən guya atəşin açılması nəticəsində sentyabrın 17-də Şuşa istiqamətində 2 erməni silahlısının yaralanması barədə yaydığı məlumat təəccüb və təəssüf doğurur.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidməti rəis müavini polkovnik-leytenant Anar Eyvazov deyib.

"Belə ki, haqqında bəhs olunan hadisə Azərbaycan Respublikası Müdafiə Nazirliyi nümayəndələrinin və Rusiya Federasiyasının Sülhməramlı kontingentinin rəhbərliyinin birgə iştirakı ilə araşdırılıb. Nəticə etibarilə, qeyd olunan tarixdə və göstərilən istiqamətdə bölmələrimiz tərəfindən hər hansı atəşin açılmadığı təsbit olunub. Hər iki tərəfin iştirakı ilə araşdırılmış məlumatın sonradan tamamilə əks formada təqdim edilməsi anlaşılan deyildir. Azərbaycan tərəfi üçtərəfli bəyanatın müddəalarına ciddi riayət etməklə ölkəmizin qanunlarına uyğun olaraq bölgədə sabitliyin təmin edilməsi və mümkün təxribatların qarşısının alınması istiqamətində səylərini davam etdirir", - deyə Anar Eyvazov vurğulayıb.

# "TurAz Şahini - 2021" təlimlərində iştirak edən hərbçilərimizin bir qrupu Vətənə qayıdıb

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında illik hərbi əməkdaşlıq planına əsasən keçirilən "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimində iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin bir qrup heyəti və aviasiya vasitələri Vətənə qayıdıb.

Qeyd edək ki, sentyabrın 1-dən 17-dək Türkiyə Respublikasının Konya şəhərində keçirilən birgə taktiki-uçuş təlimində qarşıya qoyulan bütün döyüş tapşırıqları hər iki ölkənin hərbi pilotları tərəfindən uğurla icra olunub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.**

### Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

Azərbaycan öz müstəqilliyini elan etmə ərəfəsində Rusiya imperiyasının tərkibində idi. Çar Rusiyasının 1914-cü ildə I Dünya müharibəsinə qoşulması nəticəsində ölkədə yaranan ağır iqtisadi vəziyyətdən, cəbhədəki uğursuzluqlardan məharətlə istifadə edən bolşeviklər xalq kütlələrini çar hakimiyyəti əleyhinə qaldırmağa müvəffəq oldular. 1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət Müvəqqəti Hökumətin əlinə keçdi. 1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edilmişdilər.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif şəhərlərində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə Azərbaycan milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacınski kimi ziyalılar daxil idilər. Özünün ümummilli xətti ilə xalqın rəğbətini qazanan şura Bakıda siyasi üstünlüyə malik idi.

Rusiyada 1917-ci il oktyabr silahlı üsyanından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziyada hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edilmişdilər.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Yaranan ilk günlərdən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş Seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə Azərbaycan Milli şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Milli Şuranın ilk iclasında Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik parlament respublikası - Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanda müstəqil, demokratik dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, ilk parlament və hökumət, dövlət aparatı, idarəetmə institutları formalaşdırıldı, ölkənin sərhədləri müəyyənləşdirildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, ərazi bütövlüyü və milli təhlükəsizliyin təmin edilməsi üçün mühüm işlər görüldü, dövlət bayrağı, himni və gerbi qəbul edildi, ana dili dövlət dili elan olundu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi və xalqın, milli dövlətçiliyin sonrakı illərdə hərtərəfli inkişafı üçün müstəsna əhəmiyyət kəsb edən digər mühüm məsələlərin həlli istiqamətində məqsədyönlü addımlar atıldı.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Şərqdə ilk dəfə və bəzi Avropa ölkələrindən xeyli əvvəl Azərbaycanda qadınlara seçki hüququ verildi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri olduqca mürəkkəb tarixi şəraitdə - erməni hərbi birləşmələrinin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və özlərinə dövlət qurmaq üçün torpaq iddiaları irəli sürməsi şəraitində, Batumi danışıqları nəticəsində əldə edilmiş kompromis varianta əsasən İrəvanın paytaxt kimi Ermənistana verilməsi oldu. Bu tarixi səhv Azərbaycan xalqının həyatında növbəti faciələrə və ermənilərin davamlı ekspansiyasına yol açdı.

### Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində

SSRİ-nin süqutundan sonra beynəlxalq aləmə tam müstəqil bir faktor kimi inteqrasiya etməyə başlayan gənc dövlətlərdən biri də Azərbaycan Respublikası idi. Ölkəmizin olduqca əlverişli geosiyasi məkanda, həm də dünyanın super güclərinin barışmaz maraqlarının kəsişdiyi regionda yerləşməsi milli dövlətçilik prinsiplərinə, müstəqilliyin və suverenliyin qorunmasına xidmət edəcək dayanıqlı xarici siyasi strategiyanın hazırlanmasını və tətbiqini tələb edirdi.

Müasir Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminin bərabərhüquqlu iştirakçısına çevrilməsi prosesində rastlaşdığı problemlər Cümhuriyyət dövründəki (1918-1920-ci illər), erməni şovinistlərinin "Böyük Ermənistan" yaratmaq xülyası da daxil olmaqla, analoji proseslərin davamı idi. Ümumiyyətlə, Azərbaycanın beynəlxalq münasibətlər sistemində fəaliyyətə başlamasının əsası İstanbul konfransında (1918-ci-il) qoyulub. Lakin 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini dünya ictimaiyyətinin qəbul etməsi prosesi həm də Şimal, Cənub, Qərbdən ölkənin milli təhlükəsizliyinə qarşı ciddi təhdidlərlə müşayiət edilirdi. Burada ən böyük problemlərdən biri də maddi resursların, demək olar ki, yoxluğu idi. Belə bir vəziyyətdə alternativ kimi Azərbaycanla Avropa dövlətləri arasında vasitəçiliyi Türkiyənin Avropa ölkələrindəki səfirlikləri yerinə yetirirdi.

Tariximizin son 103 ili sübut edir ki, tamam fərqli siyasi reallıqlardan söhbət getməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə 1991-ci ildə ikinci dəfə qazanılan müstəqillik dövrünün ilk illərindəki oxşar məqamlar çox olub. Belə ki, yenə də Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində regionda dünyanın böyük dövlətlərinin barışmaz maraqlarının toqquşması, milli təhlükəsizliyimiz üçün ciddi təhdid olan erməni təcavüzü, daxili siyasi vəziyyətin olduqca gərgin olması, 1991-1992-ci illərdə müstəqil Azərbaycanın gələcək inkişaf strategiyasının qeyri-müəyyənliyi müşahidə olunurdu. Deməli, belə nəticəyə gəlmək olar ki, keçən əsrin həmin illərində Azərbaycan dövlətinin mövcudluğu yenə də sual altında idi.

Müstəqilliyin ilk illərində Azərbaycanın sırf Rusiya meyilli xarici siyasəti nəzərə çarpırdısa, 1993-cü ildən başlayaraq, yəni ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra milli maraqların təmin olunmasına, beynəlxalq aləmlə sıx inteqrasiyaya istiqamətlənən xarici siyasi strategiya formalaşmağa başladı. Balanslaşdırılan siyasətə söykənən bu strategiya Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunun təşəkkül tapmasına xidmət edirdi.

Lakin həmin dövrün siyasi reallıqları fonunda dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirmək, bu əlaqələrlə Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətməyə birdən-birə nail olmaq qeyri-mümkün idi. İlk olaraq beynəlxalq ictimaiyyəti Azərbaycan Respublikası ilə qarşılıqlı əməkdaşlığa sövq etməli və onları bu əlaqələrin faydalı olacağına inandırmaq lazım idi. Yalnız bundan sonra milli maraqlarımızı regionda maraqları toqquşan dövlətlərin mənafeləri ilə uzlaşdırmaq, təhlükəsizliyimizə beynəlxalq təminat almaq üçün addımlar ataraq müsbət nəticələr əldə etmək olardı. Həmin səbəbdən ümummilli lider Heydər Əliyev konkret dövlətlərin regionda hansı maraqlara malik olması və bu maraqların onlar üçün hansı səviyyədə əhəmiyyətli olmasını dərindən təhlil etdi. Məhz bu cür yanaşmadan çıxış edərək, ilk növbədə, Rusiya ilə sıx əlaqələr quruldu. Rusiya ilə səmərəli əməkdaşlığın yaradılması üçün MDB-yə üzv olmaq əhəmiyyətli idi. Bu yalnız Rusiya yox, həmçinin digər postsovet respublikaları ilə də pozulmuş münasibətlərin bərpası üçün yeni imkanlar yaratdı.

Məlumdur ki, Azərbaycan Respublikasının xarici siyasi kursunda Türkiyənin xüsusi yeri var. Artıq bu gün Azərbaycan-Türkiyə münasibətləri beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında inkişaf etdirilərək tamam yeni mərhələyə qədəm qoyub. Ulu Öndər ilk öncə region dövlətləri, sonra isə dünyanın digər nüfuzlu dövlətləri ilə ikitərəfli və çoxtərəfli qarşılıqlı əlaqələr qurmaqla respublikamızın beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutması üçün etibarlı zəmin hazırladı. Bu gün ölkəmiz strateji tərəfdaşı olan ABŞ ilə siyasi-iqtisadi, qlobal problem və təhlükələrə qarşı mübarizədə sıx əməkdaşlıq edir.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində layiqli yerinin müəyyənləşməsində ATƏT, AŞ, Aİ, İKT, QİƏT, EKO, MDB və s. təşkilatlarla əməkdaşlığının da rolu böyükdür. Burada BMT və onun İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlığı, Uşaq Fondu, Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Qadınlar Fondu, Ümumdünya Səhiyyə Təşkilatı, YUNESKO və digər qurumları xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində rolu və yerini dəyərləndirən dünya ictimaiyyəti artıq onu həm də etibarlı tərəfdaş kimi tanıyır. Respublikamızın karbohidrogen strategiyasının mühüm tərkib elementlərindən olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eyni zamanda, ticarət və iqtisadi əlaqələrə müsbət təsir göstərən, dünyanın müxtəlif istiqamətlərini birləşdirən, Avrasiyanın nəqliyyat xəritəsini təzələyən Bakı-Tbilisi-Qars dəmir yolu xətti və layihəsi planlaşdırılan Zəngəzur dəhlizi Azərbaycana beynəlxalq aləmdə mühüm iqtisadi və strateji üstünlüklər qazandırmaqla yanaşı, bu gün bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində xüsusi rol oynayır.

Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq aləmdə milli maraqlarımızın qorunması istiqamətində gördüyü çoxşaxəli işlər, apardığı müstəqil xarici siyasəti Azərbaycan Respublikasının rolunun daha da artmasını mümkün edib. Məhz Prezident İlham Əliyevin gərgin əməyi sayəsində Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Nəzərə almaq lazımdır ki, yüz illik müstəqillik tarixinə malik olan bir çox ölkələr nə qədər cəhdlər etsələr də BMT Təhlükəsizlik Şurasının tərkibinə düşə bilməyiblər. Ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artmasını göstərən amillərdən biri də Birinci Avropa və İslam Həmrəyliyi Oyunlarının məhz Azərbaycanda keçirilməsidir. Bu onu nümayiş etdirir ki, Azərbaycan dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş, güclü, qüdrətli ölkə kimi tanınır və qəbul edilir. Ölkəmizə göstərilən hörmətə, inama və etimada görə 120 ölkənin birləşdiyi Qoşulmama hərəkatına 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilmişdir. Ölkəmizin Qoşulmama hərəkatı təşkilatının işində fəal iştirakı, bu təşkilata üzv ölkələrlə yaxından əməkdaşlıq münasibətlərinin qurulmasındakı uğurlu siyasəti və bu ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində Vətən müharibəsi gedişində BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə uyğun olmayan qətnamə layihəsinin qəbul edilməsinin qarşısı alınmışdır.

Ölkəmizi dünya birliyinə təqdim edən ümummilli lider Heydər Əliyevin balanslaşdırılmış çoxşaxəli siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin düşünülmüş strategiya və gərgin diplomatik səyləri nəticəsində müasir Azərbaycan Respublikası beynəlxalq münasibətlərin tam hüquqlu subyektinə çevrilib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regionda lider dövlətə çevirib və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şəhid Rəşid Həmidovun anım mərasimi keçirildi

2020-ci il noyabrından etibarən "növbəti bayramı Şuşada keçirək" şüarı tarixə qovuşdu. Doğma Şuşamızda Ali Baş Komandanın iştirakı ilə "Xarıbülbül" musiqi festivalı və Vaqif Poeziya Günləri kimi təntənəli mərasimlər keçirildi və bu onun nəticəsidir ki, xalqımız, ordumuz ölkə başçımızın "Dəmir yumruğu" altında birləşib əzəli torpaqlarımızdan işğalçıları qovdu. Rəşadətli Azərbaycan Ordusu bütün dünyaya bu ədalətsizliklə barışmadığını göstərdi, gücümüzü və qüdrətimizi nümayiş etdirdi. Ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən bu haqq savaşında inamla döyüşən igid oğullarımızdan şəhidlik zirvəsinə ucalanlar da oldu. Şəhidlərimizin əziz xatirələrini yad etmək məqsədilə keçirilən "Şəhidlər ölməz - Vətən bölünməz" silsiləsinin daha bir tədbiri baş tutdu.







Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində şəhid Rəşid Pərviz oğlu Həmidovun anım mərasimi keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin hərbi qulluqçuları, şəhidin ailə üzvləri, dostları və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Tədbiri Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov açıq elan edərək dedi: "Bu cür tədbirlərin keçirilməsi mühüm rol oynayır. Şəhidlərimizi həm tanımaq, həm də tanıtmaq məqsədi daşıyır. Onu qeyd etmək istəyirəm ki, artıq Rəşid tək ailəsinin, qohumlarının, dostlarının, bacısının deyil, bütün xalqımızın igidi, qardaşı və mərd oğludur".

44 günlük haqq savaşımızda həyatını Vətənə qurban verən əsgər Rəşid Həmidov Siyəzən rayonunda anadan olub. Yaşasaydı 22 yaşı olacaqdı.

Rəşid ibtidai təhsilinə Siyəzən rayon məktəbində başlasa da, sonradan o, Pirşağı qəsəbəsi 10 saylı internat tipli məktəbə daxil olur. 9-cu sinfi bitirdikdən sonra şəhidimiz Bakı Dövlət Dəmir Yolu Liseyinə qəbul olunur. Liseydə təhsilini başa vurduqdan sonra Vətən borcunu ödəməyə yollanır. 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə başlayır. Rəşidin cəldliyi, hazırcavablığı, məsuliyyətli, qəti qərarlı, nizam-intizamlı olması, komandirlərinin nəzərindən yayınmır ki, xidmətinin 6-cı ayında o, çavuş rütbəsini qazanmağa nail olur və manqa komandiri vəzifəsinə təyin olunur.

İkinci Qarabağ müharibəsinə də manqa komandiri kimi yollanan çavuş Rəşid Həmidov Suqovuşan istiqamətində döyüşlərdə iştirak edir. Daim tabeliyində olan əsgərləri qoruyur, qayğısına qalır və onlar üçün nümunə olmağa çalışırdı.

Döyüşlərin birində qəlpə yarası almağına baxmayaraq yenidən döyüşlərə qatılır. Lakin çox keçmir ki, düşmənin snayper gülləsinə tuş gəlir. Dəfələrlə yoldaşlarını döyüş meydanından çıxaran çavuşun ətrafına əsgərlər yığışır və yardım etməyə çalışırlar. Şəhidimiz isə onların irəli getmələrini tələb edərək deyir: "Düşməndən torpaqlarımızı azad edin, qisasımı alın. İrəli!".

İgid əsgərimizin anası Tənzilə xanım çıxışında Ali Baş Komandanımıza və Müdafiə Nazirliyinin rəhbərliyinə göstərilən diqqət və qayğıya görə dərin təşəkkürünü bildirdi. "Çox sağ olun ki, gəlmisiniz. Çıxış etmək, söz demək mənim üçün həm çətindir, həm də qürurludur. Çətindir ona görə ki, övladımın qoxusunu bir daha hiss edə bilməyəcəm. Qürurludur ona görə ki, mən oğlumu Vətənə vermişəm. Vətən də anadır. Mən fəxr edirəm ki, mənim də ailəmdə Polad Həşimov, Mübariz İbrahimov və Murad Mirzəyev kimi qəhrəmanlarımızın davamçısı var. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versin".

Tədbirdə şəhidin qısa, amma şərəfli ömür və döyüş yolundan söz açıldı. Qonaqlara Rəşidin həyatına həsr olunan videoçarx nümayiş etdirildi. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri tərəfindən vətənpərvərliyi tərənnüm edən musiqilər ifa olundu. Sonda xatirə şəkli çəkdirildi.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyinin təşkilatçılığı ilə şəhid zabitin xatirəsinə tikilən bulağın açılışı olub






Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Xəzər rayonu Binə qəsəbəsində şəhid leytenant Məhəmməd Zamanlının xatirəsinə tikilən bulağın açılışı olub.

Müdafiə Nazirliyi rəsmilərinin, Xəzər rayon İcra Hakimiyyətinin, şəhidin ailə üzvlərinin, döyüşçü yoldaşlarının və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası, eləcə də işğal altında olan tarixi torpaqlarımızın azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov şəhidin qısa, lakin bir gənc üçün örnək olan həyat və döyüş yolu barədə ətraflı məlumat verib.

Digər çıxış edənlər Məhəmmədin Vətən müharibəsinin başladığı ilk gündən komandiri olduğu taqımın şəxsi heyəti ilə birlikdə hərbi əməliyyatlarda fəal iştirak etdiyini, şəxsi mərdlik və igidlik nümunələri göstərdiyini qeyd ediblər. Şəhidin yaxınlarına bir daha başsağlığı verib, səbir diləyiblər.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin vətənpərvərlik mövzusunda ifaları tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Silahlı Qüvvələri "Qətiyyət-2021" təlimlərinə start verib



Türkiyə Silahlı Qüvvələri Egey və Şərqi Aralıq dənizlərində "Qətiyyət-2021" təlimlərinə start verib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirliyin rəsmi tviter hesabında verilən məlumatda deyilir: "Egey və Şərqi Aralıq dənizlərində keçiriləcək "Qətiyyət-2021" təlimləri başladı. Təlimlər çərçivəsində Türkiyənin quru, hərbi dəniz və hərbi hava qüvvələri, eləcə də Sahil Mühafizəsi Komandanlığına aid texnikanın qarşılıqlı fəaliyyətinin, qarşılıqlı dəstək imkanlarının sınaqdan keçirilməsi planlaşdırılır".

## İranın hərbi sənaye kompleksinin istehsalı olan yeni texnika nümayiş etdirilib



İranın müdafiə sənayesinin istehsalı olan yeni texniki vasitələr nümayiş etdirilib. İran İslam İnqilabı Keşikçiləri Korpusunun generalı Hüseyn Səlaminin iştirak etdiyi tədbirdə yeni minaaxtaran və zərərləşdirən robort-maşınlar təqdim olunub.

General bildirib ki, bu texnikalar ərazidə gizlədilən minaları aşkarlayıb zərərsizləşdirmək imkanına malikdir. "Raad-1" adı verilən robot-maşın yeni nəsil minaları da aşkarlayıb zərərləşdirə bilir.

H.Salam qeyd edib ki, İranın müdafiə sənayesi kompleksi son illər sürətli inkişaf yolu keçib. Bu gün İranın müdafiəsi üçün lazım olan bütün hərbi avadanlıq ölkədə istehsal edilir.

## KİV: Sudanda dövlət çevrilişinə uğursuz cəhd olub



Sudanda dövlət çevrilişinə uğursuz cəhd göstərilib.

Bu barədə Al Arabiya telekanalı ölkənin silahlı qüvvələrinə istinadla məlumat yayıb. Telekanalın xəbərinə görə, qiyam uğursuz alınıb, "ordu və nizami qoşunlar vəziyyəti nəzarətdə saxlayır". Həmçinin bildirilir ki, Xartumun küçələrinə tanklar çıxıb, hərbi qulluqçular Nil çayı üzərindəki körpüləri qısa müddət bağlı saxlayıb.

Silahlı qüvvələrin komandanlığı və ölkəni idarə edən suveren keçid Şurası dövlət televiziyası ilə xalqa müraciət edərək, ölkənin müdafiəsində dayanmağa çağırıb. Bununla yanaşı, qeyd olunur ki, hökumət və Şura üzvləri adi rejimdə işləyirlər.

Telekanalın ilkin informasiyasına əsasən, çevriliş cəhdinin arxasında bir qrup funksioner və sabiq prezident Omar əl-Bəşir rejiminin tərəfdarları dayanır, tank əleyhinə qoşunların bir neçə zabiti saxlanılıb.

Qiyamçılar dövlət radio stansiyasının binasını da tutmağa cəhd göstəriblər, lakin bunu bacarmayıblar.

## Liviya səmasında iki hərbi helikopter toqquşub



Liviya səmasında iki hərbi helikopterin toqquşması nəticəsində biri Silahlı Qüvvələrə generalı olmaqla iki hərbçinin öldüyü bildirilir.

Qəza Liviyanın şərqində baş verib. General Xəlifə Həftarın komandanlıq etdiyi Liviya Ərəb Silahlı Qüvvələrinə məxsus iki helikopter Çad ilə sərhədboyu ərazidə qiyamçılara qarşı hərbi əməliyyat zamanı Benqazi şəhərinin 130 kilometrliyində yerləşən Msus kəndi üzərində toqquşub. Həlak olanlardan biri briqada generalı Buzid Əl-Bərrasidir.

**AZƏRTAC-ın materialları əsasında**

## Nümunəvi xidmət

# “Vətən, sənin əsgərinəm!”

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi hissələrdə əsgər və zabitlərlə hər görüşü şəxsi heyətdə böyük ruh yüksəkliyi yaradır. Bu yüksəliş mənəvi-psixoloji hazırlığın səviyyəsinin artmasında olduqca əhəmiyyətlidir.*

*Bu yaxınlarda Müdafiə naziri hərbi hissələrin birində xidmətdə fərqlənən hərbi qulluqçuları təltif edib.*



**Baş gizir Möhləddin Əmənov:**

- Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun işğaldan azad edilmiş ərazilərdə xidmət edən əsgər və zabitlərlə görüşü şəxsi heyətin mənəvi-psixoloji hazırlığında əhəmiyyətlidir. Ordumuza göstərilən qayğı və bizə olan etimad hər birimizə böyük mənəvi qürur verir. Cənab nazir işğaldan azad edilmiş ərazidə yeni inşa edilmiş və əsaslı təmirdən çıxmış hərbi hissəmizdə qayğı və problemlərimizlə maraqlandı, bölməmizdə döyüş hazırlığının vəziyyətini yoxladı və komandirlər qarşısında zəruri tapşırıqlar qoydu.

Uzun illərdir ki, xidmətdəyəm. 2016-cı ilin Aprel döyüşlərində şəhid general-mayor Polad Həşimovun komandirliyi altında vuruşmuşam. 44 günlük Vətən müharibəsində də döyüşənlərin sırasındaydım. Torpaqlarımızı qarış-qarış işğalçılardan azad edərək tarix yazdıq. Həqiqətən də, hər bir azərbaycanlı üçün Vətən müharibəsi şanlı tarix oldu. Bu tarix əsrlər boyu yaddaşlardan silinməyəcək.

Haqq savaşımızın iştirakçısı olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Cəsur döyüşçü" medalı ilə təltif olundum. Bu təltif Ali Baş Komandanın Azərbaycan Ordusunun hər bir əsgəri kimi məni qürurlandırdı.

Xalqın güvənc yeri, dövlətin varlığının qarantı onun ordusudur. Bu gün xalqımızın rəşadətli ordumuza inamı böyükdür, ordumuzun isə xalqımıza sədaqəti sonsuzdur. İşğaldan azad etdiyimiz əzəli torpaqlarımızda xidmətimizi davam etdiririk. Cənab nazirimiz tərəfindən hədiyyə ilə mükafatlandırılmağım sevincimi və məsuliyyətimi daha da artırdı. Sevincimi ikiqat artıran hədiyyəni işğaldan azad etdiyimiz ərazidə almağım oldu. Bu hədiyyə göstərir ki, komandanlığın və xalqımızın bizə olan inamını layiqincə doğrultmağa borcluyuq. Bu, bizim həm xidməti, həm də vətəndaşlıq borcumuzdur.

Hərbi xidmət hər birimizə daha məsuliyyətli olmağı aşılayıb. Vətəndaşlıq borcu bu məsuliyyətin mahiyyətini zənginləşdirir. Zənginləşən, zənginləşdirilən mahiyyət vətənsevərlikdir. Yəni, hərbi xidmət birmənalı şəkildə, Vətən sevgisi deməkdir. Vətən sevgisini hərbi xidmətimizin başlıca qayəsi bilir və bu amalla xidmət edirik.

Şəhidlərin hər birinin adı şərəf tariximizə əbədiyyən həkk olundu.

Oğlum Nihad da gələcəkdə hərbçi olmaq istəyir. Hər valideyn üçün övladını hərbi mundirdə görmək qürurverici və sevindiricidir. Yaşının az olmasına baxmayaraq, övladımın hərbi formaya olan sevgisini daim hiss edirəm.

**Əsgər Sinan Çıraqov:**

- Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən mükafatlandırılanlardan biri də mən oldum. Bu hədiyyənin mənim üçün hər zaman özünəməxsus yeri olacaq. Layiq görüldüyüm bu qiymətli hədiyyə unudulmaz və əvəzedilməzdir. Xidmətim müddətində ən yaddaqalan hadisələrdən birini yaşadım. Cənab nazir qalib ordunun əsgəri olaraq bundan sonra da nümunəvi xidmətlə fərqlənməyimizin, işğaldan azad etdiyimiz torpaqlarda ayıq-sayıq xidmət aparmağımızın zəruriliyini xüsusi qeyd etdi, xidmətin düzgün təşkili ilə bağlı müvafiq tapşırıqlarını verdi. Xidmətim boyu çalışacağam ki, göstərilən etimada layiq olum.

Ordumuz beynəlxalq hüquqla tanınan qanuni torpaqlarımızı işğaldan azad etmək üçün 44 günlük haqq savaşında qalib gəldi. Düşməni darmadağın etdi. Hər birimiz qürurluyuq. Qürurluyuq ki, Vətən müharibəsi iştirakçısı kimi tarixi bir hadisənin iştirakçısı və şahidi olan bir nəslin nümayəndəsi olduq. Ali Baş Komandanı-



mızın əmri ilə 2020-ci ilin 27 sentyabrı tarix oldu - Vətən müharibəsinin başlanğıcı kimi. 44 gün davam edən döyüşlərdə Azərbaycan əsgəri tarixi ədaləti bərpa etdi. Düşməni döyüş meydanında məğlubiyyətə uğratdı.

Vətəni qorumaq və bu yolda böyük fədakarlıqlar göstərmək hər bir vətənpərvər gəncin qarşısında duran vəzifələrdəndir. Azərbaycan əsgəri hər zaman Ali Baş Komandanına və xalqına sadiq olub, onların etimadına hər zaman layiq olmağa çalışıb. Bu gün işğaldan azad etdiyimiz ərazilərdə şəxsi heyət üçün nümunəvi sosial-məişət şəraiti yaradılır. Azərbaycan Ordusunun əsgəri olaraq dövlətimiz və xalqımız qarşısında müqəddəs borcumuzu daha inamla yerinə yetiririk.

Bu gün xidmətdəyik. Biz də ordu sıralarından tərxis olunacağıq. Ordu sıralarından tərxis olunduqdan sonra da özümüzü Vətənin əsgəri biləcəyik. Biz vətəndaşlıq borcumuzu da əsl hərbçi sədaqəti ilə yerinə yetirəcəyik. Onda da qürurla deyəcəyik ki, Vətən, sənin əsgərinəm.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

## Hərbi texnikalar, silahlar

# “Niobiy” radiolokasiya stansiyası





Rusiyanın yerli hava-kosmik müdafiə qoşunlarının silahlanmasına müasir "Niobiy" radiolokasiya stansiyası daxil olmaqdadır. Stansiyanın layihəsi Nijeqorod Radiotexniki Elmi Tədqiqat İnstitutunun kollektivi tərəfindən hazırlanıb və Nijeqorod maşınqayırma zavodu tərəfindən həyata keçirilib.

"Niobiy" radiolokasiya stansiyası "Nebo-U" radiolokasiya stansiyası ailəsinin davamıdır. Müasir radiolokasiya stansiyası təyyarələrdən helikopterlərə qədər, 10 kilometrlik uzaqlıqdan 600 kilometrlik məsafədə və 80 kilometrlik hündürlükdə olan ballistik raketlərədək müxtəlif hədəfləri aşkar etməyə qadirdir. Onun müşayiət etdiyi hədəflərin sürəti saatda 8000 kilometrə qədərdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan bodibildinqçisi Əliyulla Abbaszadə tarixi uğura imza atıb



Azərbaycan bodibildinqçisi Əliyulla Abbaszadə tarixi uğura imza atıb. Təmsilçilərimiz İspaniyanın Sevilya şəhərində təşkil olunan mötəbər "Arnold Klassik Avropa" yarışında 2 medal qazanıblar.

Turnirdə 95 kiloqram çəki dərəcəsində çıxış edən Əliyulla Abbaszadə bütün rəqiblərini qabaqlayaraq nüfuzlu yarışın qalibi adını qazanıb. Təmsilçimiz, həmçinin mütləq kateqoriyada üçüncü olub. Bu medal Azərbaycan bodibildinq idmanı tarixində "Arnold Klassik" yarışlarında qazanılan ilk mükafatdır.

Digər idmançımız Rasim Həsənov isə mens fizik yarışlarında fərqlənərək qızıl medal qazanıb. R.Həsənov mayda İspaniyada təşkil olunan Avropa çempionatında da birinci olmuşdu.

"Arnold Klassik Avropa" yarışı 2011-ci ildən keçirilir. Hər il İspaniyada keçirilən yarış məşhur idmançı Arnold Şvartseneqerin təşəbbüsü və Beynəlxalq Bodibildinq və Fitness Federasiyasının təşkilatçılığı ilə baş tutur.

## Bədii gimnastlarımız Monteneqroda 6 medal qazanıblar



Monteneqronun Budva şəhərində keçirilmiş bədii gimnastika üzrə "Wild Beauty Cup" adlı beynəlxalq turnirdə Azərbaycan komandası 6 medal qazanıb.

Yarışda fəxri kürsünün hər üç pilləsində yer alan Kamilla Seyidzadə komanda hesabına ən çox medal yazdıran gimnast olub. Belə ki, o, lentlə icra etdiyi çıxışı ilə bütün rəqiblərini üstələyərək qızıl medal qazanıb. Gürzlərlə gümüş, çoxnövçülük və halqa ilə yerinə yetirdiyi proqrama görə istedadlı gimnastımız bürünc medala sahib olub.

K.Seyidzadə daha bir bürünc medalı isə Alina Gözəlova ilə birlikdə komanda hesabında əldə edib. A.Gözəlova öz növbəsində topla nümayiş etdirdiyi çıxışına görə də bürünc mükafat əldə edib.

## MMA döyüşçümüz Nəriman Abbasov növbəti qələbəsini qazanıb



Azərbaycanın və "Qəbələ" idman klubunun MMA döyüşçüsü Nəriman Abbasov növbəti qələbəsini qazanıb.

İdmançımız tanınmış döyüşçü Həbib Nurməhəmmədovun atası Abdulmanap Nurməhəmmədovun xatirəsinə həsr olunan turnirdə qüvvəsini sınayıb. Yüngül çəki dərəcəsində "AMC Fight Nights" çempionu olan 27 yaşlı təmsilçimiz titul döyüşündə rusiyalı Şamil Zavurovla qarşılaşıb.

Moskvada təşkil olunan döyüşün taleyini ilk raundda həll edən N.Abbasov texniki nokautla qalib gəlib. İdmançımız bununla da "AMC Fight Nights"ın çempionu titulunu qoruyub .

Bu, Abbasovun karyerasında 30-cu döyüş olub. Yalnız üç dəfə uduzan idmançımız 27-ci qələbəsini qazanıb.

## Tamblinqçimiz Tofiq Əliyev Ukraynada gümüş medal qazanıb



Tamblinqçilərimiz Ukraynanın Odessa şəhərində keçirilmiş ölkə kuboku yarışlarında çıxış ediblər.

Yarışda Tofiq Əliyev, Adil Hacızadə, Hüseyn Əsədullayev, Bilal Qurbanov, Elnur Məmmədov və Aleksey Karataşov mübarizə aparıblar.

Təmsilçilərimiz arasında ən yaxşı nəticəni Tofiq Əliyev göstərərək yarışda ikinci olub.

**AZƏRTAC-ın**
**materialları əsasında**

**Baş redaktor vəzifəsini icra edən**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 608
Nüsxə 4009